# Bağlı qapı açaram...

## Şair-publisist, küllü-Qarabağın sevimlisi Əli Mahmudun söz xalçasından butalar



*Vaqif Bəhmənlinin təqdimatında*

**(əvvəli ötən saylarımızda)**

Şuşa toyları bir qayda olaraq günorta saatlarında başlayardı. Hamı bir nəfər kimi saat 13:00 məclisdə öz yerini tutardı. Sağlıq demək səlahiyyətini, necə deyərlər, ağsaqqallıq titulu olanlara verirdilər. Toyun yazılmamış qanunlarından biri də ilk sağlığın müəllimlər və həkimlər barədə olmasıydı. Qadınlar üçün ya ayrıca mağar tikilər, ya da geniş və işıqlı, zövqlə bəzədilmiş otaq ayrılardı. Şuşaya Şırlan kəndindən - 19 km məsafədən turşsu, mineral su xətti çəkilmişdi. Ümumittifaq əhəmiyyətli "Şuşa" sanatoriyasının həyətində şəhərin tarixi binaları ilə uyarlıq təşkil edən qala və bürclərlə həmahəng olan "Turşsu qalareyası" keçmiş SSRİ-nin ən uzaq diyarlarından gələn insanların marağına səbəb olurdu, Şuşanın təmiz havası, saf suyu əsasən mədə-bağırsaq, asma və əsəb xəstəliklərindən əziyyət çəkənlərin ümid yerinə çevrilmişdi.

Şuşaya birinci dəfə gələn pasientlərin qarşılarına çıxan yerli sakinlərə ilk sualları "Qde zdes" "Vitrizvitel" olurdu. Açığını deyim ki, Ağdam Şərab zavodunda istehsal edilən "Portleyin" çaxırı əsasən rus qadınların sevimli içkisi, "Vitrizvitel" adlandırdıqları isə Cıdır düzünün büllur, saf havası idi. Rus kişilərinin isə başları "Ağdam" partveynindən açılmır, əksər vaxtlarda heç otaqlarından belə bayıra çıxmırdılar.

Şuşanın əziz qonaqları sırasında Xan Şuşinskinin, Üzeyr Hacıbəyli ənənələrini şərəf və ləyaqətlə davam etdirən, dünyalarca məşhur bəstəkar Süleyman Ələsgərovun, SSRİ xalq artisti, maestro Niyazinin, SSRİ xalq artisti, böyük aktyor və rejissor Mehdi Məmmədovun, SSRİ xalq rəssamı, tayı-bərabəri olmayan məşhur xalçaçı Lətif Kərimovun, SSRİ xalq artisti, dünyanın bütün xalqlarını səsinin sehrinə salmış Rəşid Behbudovun, böyük alim Xudu Məmmədovun, Qarabağ, onun musiqi tarixini saxtalaşdırmaq istəyən ermənilərin analarını ağlar qoyan tarixçi-musiqişünas Firudin Şuşinskinin xüsusi yeri, ölçüyə gəlməz xətir-hörməti vardı. Onların vaxtaşırı Şuşanı ziyarətə gəlmələri, Dağlıq Qarabağın milliyyətcə erməni olan rəhbərlərini ciddi narahat edir, xəbislikdən yanıb-yaxılırdılar. Qismətim elə gətirmişdi ki, 1973-1990-cı illər ərzində "Şuşa" qəzetində ədəbi işçi, məsul katib və redaktor müavini, eyni zamanda, SSRİ Jurnalistlər İttifaqının üzvü kimi onların əksəriyyəti ilə müsahibələr aparmışam.

Xan Şuşinski ilə "Axşam üstü qoy uzaqdan..." adlı müsahibəmdə Şuşanın yetirdiyi musiqiçilərə təbiətin təsiri barədə verdiyim suala Xan əminin cavabı belə oldu: "Bildiyimə görə, sən əslən laçınlısan, ancaq orta məktəbi Şuşada oxumusan. Deməli, hər iki rayonun təbiətinə yaxşı bələdsən. Sən Cıdır düzünə çıx. Hiss edəcəksən ki, Kirs və Sarıbaba dağlarından Daşaltı dərəsi boyunca gül-çiçək ətirli hava Əsgəran qalasına tərəf axır. "Ərimgəldi, Dovtələb tərəfdən Xəlfəli, Şırlan dərəsi boyunca Qırxqız dağının eyni cür gül-çiçək ətrili havası da Əsgərana yaxınlaşır. Sonda Aran Qarabağdan hər iki dərənin sorduğu hava axınının qarşısı kəsilir. Həmin hava hər iki vadinin yaxası boyunca Şuşanın küçə və səkilərinə, döngələrinə, ev və eyvanlarına dolur. Bax, bu diyarın müğənnilərinin səslərindəki məlahət, şaqraqlıq, şirinlik belə bir möcüzənin bəhrəsidir".

Həmin gün Xan əminin muğamlarımız, ayrı-ayrı xanəndələr barədə söhbətlərini yaddaşıma ədəbilik köçürdüm. İki mərtəbəli evinin eyvanında moruq mürəbbəsi ilə içdiyim pürrəngi çayın dadını isə hələ də unutmamışam.

**- Şuşayla Laçın əhalisinin oxşar və fərqli cəhətlərini müqayisə edə bilərsənmi? Laçın Azərbaycan üçün nədir? Orada nələrimiz qalıb?**

- Laçın Şuşadan Qərbi Azərbaycana, Naxçıvana uzanan yolumuzun davamıdır. Oxşarlıq gözütoxluqda, ağayanalıqda, qonaqpərvərlikdədi, sözübütövlükdədi. Şuşa Azərbaycanın qədim şəhərlərindən, mədəniyyət, elm mərkəzlərindən biridir. Şuşanın 17 məhəlləsi, 17 bulağı, çox sayda müqəddəs ziyarətgahı, məscidi vardı. Laçının əsrarəngiz təbiəti, İstisu kimi şəfa qaynaqları, Turşsuyu, keybir bulaqları saysız-hesabsız idi. Qırxqız dağı bir tərəfdən Kirs, Sarıbaba dağına, digər tərəfdən Dəli dağa, İşıqlı dağına söykənərək yağılardan intiqam alacaq igidlərin yolunu gözləyir. Laçının qədim qəbiristanlıqlarının demək olar ki, qəbirüstü daşları at, qoç heykəllərindən ibarət idi. Ağoğlan qəsri son işğal gününədək yağıların göz dağına çevrilmişdi.

Laçın bizdən əvvəlki nəsillərinə Ermənistan dövləti yaradılması üçün bəxş etdiyimiz Qərbi Azərbaycan ərazisindən Qarabağımıza gələn yolun "Qara qapısı" adlanırdı. Ən əsası, xalqımızın, ümumiyyətlə, türk dünyasının qəddar düşməni, qulağı kəsilmiş erməni dığası Andranikin ötən əsrin əvvəllərində Laçının Zabux kəndində ordusunun sonuncu daşnak dığasına qədər məhv edildiyi müqəddəs hərb meydanımızdır. General rütbəli daşnak ermənisinin tülkü hiyləgərliyilə qaçıb yalnız canını qurtara bildiyi yerdir. Xatırladım ki, bu döyüşə Qarabağın general-qubernatoru, əslən Laçından olan Xosrov bəy Sultanovun kiçik qardaşı Soltan bəy rəhbərlik etmişdi. Bir sözlə, həmişə Şuşa Laçına, Laçın isə Şuşaya sipər olmuşdur. Bilirsən ki, mən əslən laçınlıyam. İstəsən doğma yurduma həsr etdiyim şeirimdən bir neçə bəndini sənə oxuyum.



Mir Möhsün Nəvvab erməni-müsəlman davasından bəhs edən əsərində mənim doğulduğum Laçın rayonun Piçənis kəndindən yüz atlı igidin Şuşanın Qala dərəsi kəndinə hücum edərək buradakı daşnak yuvasını darmadağın etməsini yazmışdı. Rəhmətlik Nəvvab həmin yazısında türk igidləri əvəzinə kürd igidləri yazmışdır. Məlumat üçün deyim ki, Piçənis kəndində bir nəfər belə kürd yaşamamışdır. Mən bu faktı dəqiqlik üçün dilə gətirdim.

Şuşalılarla laçınlıları bir-birindən fərqləndirən cəhətlər var, Şuşa tarixi şəxsiyyətlərin doğulduğu, yaşadığı, Qarabağ xanlığının mərkəzidir. Laçın şəhəri istisna olmaqla, Laçın rayonunun əhalisi təsərrüfat işləri, əsasən də heyvandarlıqla məşğul olub. Heç şübhə yoxdur ki, Laçının Əli Vəliyev, Süleyman Rəhimov, Hüseyn Kürdoğlu, Ağa Laçınlı kimi Azərbaycan ədəbiyyatına xüsusi rəng qatan ədibləri, digər sahələrdə çalışan alimləri, ictimai xadimləri çox olub.

Bayaq da danışdıq, Şuşa və Laçın camaatını son dərəcə güclü yumor duyğusu birləşdirir. İki misal çəkim: Şuşada ağızdan pərtov, təpədən dırnağa yumorla dolu bir faytonçu yaşayırmış. Söz altından qaçmayan, əsasən, söyüş söyməyi xoşlayan faytonçunu özündən çıxarmaq istəyən məşhur tacirlərdən biri həmin faytonçu ilə Aran Qarabağa getmək bəhanəsiylə yola çıxır. Şuşadan ayrılan kimi, tacir faytonçunu əsəbləşdirmək üçün onu nalayiq sözlərlə cızığından çıxarmaq istəyir. Faytonçu isə onun hər sözünə bircə kəlməylə cavab verir: "Az fərq edər". Tacir Xan bağına çatanda faytonçuya son sualını verir:

- Səni bu qədər incitdim, cavabın sona qədər dəyişmədi. "Az fərq edər" deməklə, nəyə nail oldun?

Faytonçu cavabında:

- Sən mənə qarşı özünə yaraşmayan təhqiramiz sözlər işlədəndə "az fərq eliyər" cavabımla demək istədim ki, sən bərkdən dedin, mən dodağımın altında ikiqat artıqlamasıyla cavab verdim,- deyir.

Tacir: - Hə, sən məndən də betər cavablar vermisən. Mən artıq Aran Qarabağa gedəsi olmadım. Atlarının başını döndər, Şuşaya qayıdaq.

Laçının Piçənis Sovetliyinin Fərraş kəndində Bəbir adlı bir baməzə kişi yaşayırdı. Onu kolxozun at ilxısına müdir qoyurlar. Az keçmir, rayonun rəhbər işçilərindən sifarişlər gəlir. Rayon Partiya Komitəsindən birinci, ikinci və üçüncü katiblərinin minməsi üçün üç ayğır göndərilməsi tapşırılır. Qısa zamanda sifarişlərin sayı artır.

Ayğırın birini İcraiyyə Komitəsinin sədri, birini rayon prokuroru, birini xalq nəzarəti komitəsinin sədri, sonuncusunu Rayon daxili İşlər Şöbəsinin rəisi sifariş edir. Çox keçmir, kolxoza gələn təftişçi iki il ərzində yüz baş atdan vur-tut bir bala alındığını müəyyən edir. Məsələnin rayon səviyyəsində müzakirəsi keçirilir. Bəbirin sorğu-suala cavabı uzun çəkmir. Deyir ki, mənim ilxımda cəmi-cümləteni 8 ayğır vardı. Onun 7-si siz rəhbərlərin altındadır. Yerdə qalan bir ayğırın da bir balası sağ-salamat ilxının içindədir. Söhbətin belə qəlizləşəcəyini gözləməyən Rayon Partiya Komitəsinin büro üzvləri məsələnin müzakirəsinin növbəti büro iclasına qədər təxirə salınmasını təklif edirlər.

Şuşalılar küçədə, səkidə, çayxanalarda astadan danışardılar. Laçın dağ rayonu olduğuna, evlərin bir-birindən aralı tikildiyinə görə bir balaca hündürdən danışmağı vacib sayırlar...

Niskil bir deyil, iki deyil. Laçın niskili barədə yazmışam ki:

***Məndən incik dağın, dərən,***
***Yad əllərdə bəndin, bərən,***
***Göz yaşı dərib "Şehdərən"***
***Kimlərə göndərə bildi?***

***Səngərə dönüb selovun,***
***Qırılıb, tükənib ovun,***
***Qaçha-qaççın qovhaqovun,***
***Sonu yoxdu neçə ildi.***

***Quruyub bulağın, çayın,***
***Ta gəlmir hayın, harayın.***
***Söküldü şahlıq sarayın,***
***Bu nisgil başqa nisgildi.***

***İgidsiz kəhər nə gərək,***
***Kəhərsiz yəhər nə gərək,***
***Ümidsiz səhər nə gərək,***
***Kimlər sordu, kimsələr bildi?***

***Hara köçüb bu el-oba?***
***Yol gözləyir Sarı baba...***
***Günləri düzmüşük sapa-***
***Yaşayırıq necə ildi.***

***Ay İşıqlım, ay Həkərim,***
***İtibdi səmtim, sakərim.***
***Elimdən yoxdu xəbərim,***
***Əlim Tanrıdan üzüldü.***

**- Məncə, sənin qəlbinə Şuşa və Laçın qədər yaxın olan üçüncü məkan Kəlbəcərdir. Kəlbəcərlə, onun insanları ilə bağlı hansı əziz məqamlar daim səninlədir?**

- Kəlbəcər Allahın yaratdığı möcüzələrin ən mükəmməli, ən unikalı idi. Bu qədim, ulu diyarı ətraflı tanımaq, onun sakinlərinin şair təbiətini, hazırcavablığını duymaq, görmək üçün üç keçilməz dərənin çətinliklərinə, əziyyətinə sinə gərməli olurdun. Məşhur Tunel yolu səni Dəli dağın yamaclarına, son zirvəsinə aparar, qonaq-qaralı Başlıbel kəndinin ziyalıları, müdrik ağsaqqalları, ağbirçəkləri məramı, məqsədi xeyirxahlıqla dolu insanlarına qovuşdurardı. Mən bu kəndə Laçın rayonunun Çiçəkli dağından at belində keçərək, dostlarımla dəfələrlə dost qapısını döymüş, Qənimət Rzayev, Hüseyn müəllim kimi ziyalıların günlərlə qonağı olmuşdum. Tutqu çayının şirin ana laylasını xatırladan səsini dinləmişəm. Elə oradan da Soltanheydər dağının gözəlliklərini gözlərimə köçürə-köçürə Ceyran bulağına, Tatallar çayının görüşünə, Sarı bulağın sərinlyinə qovuşmuşam. Kəlbəcər məni aşıqlar aşığı, müdirklər müdriki, sazlı-sözlü aşıq Şəmşirlə, şair dostum Əli Qurbanovla birləşdirib. Kəlbəcəri tanımamışdan Məmməd Aslan, Bəhmən Vətənoğlu, Sücaət və başqa söz sərraflarının sehrinə düşmüşəm. Kəlbəcər həm də mənim üçün müqəddəs Azərbaycan torpaqlarının - Laçınımın, Göyçə mahalımın davamı idi. Ünüm yetən, əlim çatan Səfollar İsti suyum, coşub-çağlayan Arpa çayının oxuduğu başıbəlalı torpaqlarımızın qəm nəğməsini dinlədiyim təbiət möcüzəsi idi. Kəlbəcəri həmişə keçilməz sipərim, qalalarım, qəsirlərim hesab etmişəm.

**- Yəqin Xocalı qəbiristanlığını dönədönə ziyarət etmisən? O böyük bir mədəniyyətin yadigarı idi?**

- Doğrudur, Xocalı qəbiristanlığını dəfələrlə ziyarət etmişdim. Birinci ona görə ki, bu qəbiristanlıq təkcə bir kəndin maddi-mədəni sərvəti ulularımızın uyuduğu məkan deyildi.

Neçə minillərin o tayından xəbər verən tariximizin daş yaddaşına yazılmış kitabımız, qəbirlərimiz, kurqanlarımız, məqbərə və künbəzlərimiz türk qövmünün silinib-pozulmayan nişanələri idi. Ermənilər Xocalı aeroportunu genişləndirmək bəhanəsiylə qəbiristanlığı hədəfə alsalar da, Xocalının igid, vətənpərvər sakinləri sinələrini sipər etməklə millətçi, qaniçən ermənilərin arzularını gözlərində qoymuşdular. Bu qəbiristanlıq mənim üçün bir də ona görə müqəddəs idi ki, mənim Piçənis kəndimin Qələndərlər nəslindən onlarla insanı burada uyuyurdu. Xocalı məzarlığı dünya əhəmiyyətli Quruçay mədəniyyətinin ən qiymətli örnəklərindəndir.

**(ardı növbəti savımızda)**